ISSN: 2706-6185
e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/49/103-109

**Səidə Quliyeva**
Bakı Dövlət Universiteti
https://orcid.org/0000-0003-4320-3425
saidaquliyeva@bsu.edu.az

# Soyqırımı və müharibə cinayətləri: dünya və Azərbaycan təcrübəsində yaddaş siyasəti

## Xülasə

Tədqiqatın əsas məqsədi müharibə cinayətləri və soyqırımlarına (Holokost, Ruanda, Srebrenitsa, Əlcəzair, Ukraynada Qolodomor və Buça, Azərbaycanda 1918-ci il və Xocalı soyqırımları) aid hadisələrin kollektiv yaddaşın formalaşması, maarifləndirmə və siyasi funksiyalarını araşdırmaqdır. Xüsusilə, alman və erməni faşistləri tərəfindən törədilmiş cinayətlərin sənədləşdirilməsi və beynəlxalq ictimaiyyətə təqdim olunması istiqamətində görülən işlərə diqqət yetirilir. Araşdırmanın nəticələri göstərir ki, memorial muzeylər bu gün təkcə xatirə məkanları deyil, eyni zamanda siyasi və hüquqi mübarizə vasitələri kimi də çıxış edirlər. Azərbaycanlılara qarşı törədilmiş cinayətlərə aid müvafiq abidələrin ucaldılması və beynəlxalq hüquqi tanınma istiqamətində səylər tarixi zərurət kimi təqdim olunur. Mövzu Azərbaycan tarixşünaslığında ilk dəfə tədqiqata cəlb edildiyindən elmi baxımdan əhəmiyyətlidir.
***Açar sözlər:*** *soyqırımı, müharibə cinayətləri, memorial muzeylər, yaddaş siyasəti, Holokost, Srebrenitsa, Xocalı soyqırımı, 1918-ci il soyqırımı*

**Saida Guliyeva**
Baku State University
https://orcid.org/0000-0003-4320-3425
saidaguliyeva@bsu.edu.az

# Genocide And War Crimes: Memory Politics in the Experience of the World and Azerbaijan

## Abstract

This study explores the role of war crimes and genocides—including the Holocaust, Rwanda, Srebrenica, Algeria, the Holodomor and Bucha in Ukraine and the 1918 and Khojaly genocides in Azerbaijan—in shaping collective memory, public awareness and political discourse. Particular emphasis is placed on the documentation and international dissemination of crimes committed by german and armenian fascist. The findings reveal that memorial museums today function not only as spaces for remembrance but also as instruments of political and legal advocacy. In the context of crimes committed against Azerbaijanis, the establishment of commemorative monuments and the pursuit of international legal recognition are presented as historical imperatives. The study is significant as it introduces this topic into Azerbaijani historiography for the first time.
***Keywords:*** *genocide, war crimes, memorial museums, memory politics, Holocaust, Srebrenica, Khojaly genocide, 1918 genocide*

## Giriş

***Qarabağ uğrunda Vətən müharibəsinin 5 illiyinə, Srebrenitsa soyqırımının 30 illiyinə həsr edilir.***

**XX və XXI əsrlərdə baş verən müharibələr, ideoloji toqquşmalar və etnik qarşıdurmalar nəticəsində törədilmiş soyqırımı və müharibə cinayətləri insanların kollektiv yaddaşında silin**

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**məz izlər buraxmışdır.** Təəssüf ki, müharibələr və ideologiya mövzusunun araşdırılması zamanı hərbi əməliyyatların gedişində məqsədli şəkildə mülki insanların qətlinə aid materiallara da rast gəlinir və bu mövzuların müzakirəsi aktuallıq kəsb edir. Bu hadisələrin qurbanlarının xatirəsinin qorunması, xatırlanması və gələcək nəsillərə ötürülməsi məqsədilə müxtəlif ölkələrdə muzey və memorial komplekslər yaradılmışdır. Dövlətlərin müharibə cinayətləri üzrə yaddaş siyasətləri münaqişələr zamanı törədilən cinayətlərin ictimai yaddaşda qorunması, cəmiyyətlərdə bu cinayətlərin tanınması, ədalətin bərpası və təkrarının qarşısını almaq məqsədilə həyata keçirilən çoxşaxəli tədbirlər sistemidir. Bu siyasət həm hüquqi mexanizmləri, həm də maarifləndirici və mədəni vasitələri əhatə edir.

Tədqiqatda müxtəlif ölkələrdə yaddaş siyasətinin necə formalaşdığı araşdırılır, qlobal və lokal nümunələrin müqayisəli təhlili aparılır. Əsas diqqət Holokost, Srebrenitsa, Ruanda və digər faciələrə, eləcə də Azərbaycanda 1918-ci il və Xocalı soyqırımına yönəldilmişdir.

Mövzu Vətən müharibəsi zamanı azad edilən ərazilərdən tapılan müharibə cinayətləri və soyqırıma aid faktlara görə aktuallıq kəsb edir. Azərbaycan tarixşünaslığında bu mövzuya ilk dəfə müraciət edilir. Bu baxımdan mövzu ilə əlaqəli müraciət edilən mənbələr (xüsusilə Human Rights Watch və International Committee of the Red Cross hesabatları) müqayisəli-tənqidi metodla təhlil edilmişdir.

**Tədqiqat**

Tədqiqat çərçivəsində "soyqırımı" və "müharibə cinayətləri" anlayışlarının izahı mühüm əhəmiyyət daşıyır, çünki bu terminlərə aid hadisələr mahiyyət etibarilə fərqlidir, lakin bir çox hallarda bir-biri ilə əlaqəlidir. Çünki tarixin müxtəlif dövrlərinə aid bu kimi hadisələr heç də rəsmi olaraq tanınmır.

**Soyqırımı** — müəyyən etnik, dini, milli və ya sosial qrupun tam və ya qismən məhv edilməsidir (qrup üzvlərinin öldürülməsi, ciddi bədən və psixoloji zərərlərin yetirilməsi, yaşayış şəraitinin qəsdən pisləşdirilməsi, uşaqların zorla başqa qrupa verilməsi və s.). 1948-ci il BMT-nin "Soyqırımın qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya" ilə bu cinayət beynəlxalq hüquqi status qazanmışdır.

**Müharibə cinayətləri** isə silahlı münaqişə zamanı beynəlxalq humanitar hüququn, o cümlədən Cenevrə və Haaqa Konvensiyalarının pozulması ilə bağlı törədilən əməllərdir (mülki əhaliyə qarşı zorakılıq, əsirlərə işgəncə, mülki obyektlərin dağıdılması və qeyri-insani rəftar). Bu cinayətlər Beynəlxalq Cinayət Məhkəməsi (ICC) və digər beynəlxalq tribunallar tərəfindən cəzalandırılır (International Criminal Court, 2002). Yaddaş siyasətinin mühüm komponentlərindən biri də hüquqi cavabdehlik məsələsidir. Lakin bəzi dövlətlər ICC-nin yurisdiksiyasını qəbul etmir və vətəndaşlarını bu məhkəməyə təqdim etməkdən imtina edirlər.

Göründüyü kimi, soyqırımı və müharibə cinayətləri eyni kontekstdə baş verə bilər. Münaqişə zamanı həyata keçirilən etnik təmizləmə aktları həm soyqırımı, həm də müharibə cinayəti kimi qiymətləndirilə bilər. Hər iki cinayət kateqoriyası insan hüquqlarının kobud şəkildə pozulmasına səbəb olur, cəmiyyətlərin tarixi yaddaşında dərin iz buraxır və uzunmüddətli sosial-siyasi nəticələr doğurur.

**Dünya tarixində hərbi cinayətlər və soyqırımı**

Müharibə cinayətlərinə dair yaddaş memorial abidələr, muzeylər və anım günləri vasitəsilə qorunur. Bu məkanlar həm tarixi sənədlərin saxlanmasına, həm də ictimai maarifləndirməyə xidmət edir. Qlobal miqyasda həyata keçirilən memorial və hüquqi təşəbbüslər müharibə cinayətlərinə qarşı birgə mövqeyin formalaşmasına xidmət edir. Bir çox müharibə cinayətlərinin baş verdiyi bölgələrdə həmin cinayətləri yaddaşda yaşatmaq üçün muzeylər və abidələr inşa edilir.

Ən çox müzakirə edilən müharibə cinayəti II Dünya müharibəsində faşistlər tərəfindən törədilən holokostdur. Hadisələrin baş verdiyi ərazilərdə və İsraildə holokost qurbanlarının xatirəsinə muzey və memorial komplekslər yaradılmışdır. Auşviç-Birkernau Dövlət Muzeyi (Auschwitz–Birkenau, Polşa, Osviençim) müharibə dövründə Polşada yerləşən ən böyük ölüm düşərgəsinin ərazisində yaradılmışdır. Bu muzey 1979-cu ildə UNESCO-nun Ümumdünya mədəni irs siyahısına daxil edilmişdir (UNESCO World Heritage Centre). Ukraynada yerləşən "Babın Yar" Milli Tarix və Memorial Kompleksi də faşistlər tərəfindən həyata keçirilən soyqırım qurbanlarının xatirəsinə yaradılmışdır. Burada təqribən 150 min yəhudi və sovet əsgəri qətl edilmişdir (Babii Iar). Müharibə

Qurbanları Muzeyi (Brnenec, Çexiya) isə Oskar Şindlerin 1,200 yəhudini xilas etdiyi keçmiş tikiş fabrikində yerləşir, holokost və bölgənin yəhudi tarixini əks etdirir. İsrail dövləti holokostun tarixinə dair sənədləri və şəxslərin məlumatlarını 1953-cü ildə yaratdığı Yad Vaşem (Yad Vashem) muzeyində ictimaiyyətə təqdim edir. Əsas məqsədləri faşizm tərəfindən qətl edilən 6 mln yəhudinin xatirəsini yaşatmaq, qorumaq və növbəti nəsillərə ötürməkdir. ABŞ-da da Hokolost muzeyi vardır (United States Holocaust Memorial Museum, 1993).

Baş verən soyqırımlar sırasında 1994-cü ildə Ruandada ekstremistlər tərəfindən 800 min nəfərin qətl edildiyi Tutsi soyqırımı da dəhşətləri ilə fərqlənir. Bu faciə haqqında materiallar Kigali Soyqırımı Memorial Mərkəzində toplanmışdır.



**Şəkil 1. Srebrenitsa soyqırımı qurbanlarına aid toplu məzarlıq. Soyqırım abidəsi**
*Mənbə:* Euronews. İnformasiya agentliyi.
https://static.euronews.com/articles/stories/03/21/08/84/1024x576_cmsv2_fcc62253-cf0d-578b-b7d7-9923b36c880d-3210884.jpg

1995-ci ildə Srebrenitsada serblər tərəfindən 8 min mülki insanın qətli II Dünya müharibəsindən sonra ilk və dəhşətli soyqırım kimi xatırlanır. Soyqırım qurbanlarının xatirəsi üçün Srebrenitsa-Potoçari Memorial Mərkəzi yaradılmışdır (Şəkil 1). Soyqırımın törədilməsindən 30 il keçməsinə baxmayaraq hələ də 100-dən çox cəsəd tapılmamışdır (“Srebrenitsa soykırımı 23. yılında...”, 2018; Genotsid v Srebrenitse).

Eyni zamanda, bəzi soyqırımlar və müharibə cinayətləri bir sıra dövlətlər tərəfindən soyqırımı kimi tanınsa da, rəsmi şəkildə beynəlxalq hüquq tərəfindən tanınmamışdır.

1954–1962-ci illərdə Fransanın Əlcəzairdə 1 milyon yaxın insanı qətl etməsi təəssüf ki, Fransa və digər dövlətlər tərəfindən soyqırımı kimi tanınmır, lakin Əlcəzairdə açılmış Mucahidlər Muzeyi (Musée du Moudjahid) Fransa müstəmləkəçiliyinə qarşı mübarizəni (Mehmet, 2013, s. 155–87) əks etdirən materialları nümayiş etdirir. Muzeydə 1830–1962-ci illərə aid zorakılıq, işgəncə və qətllərə aid materiallar, o cümlədən arxiv materialları və sənədlər toplanmışdır. Muzey “Məqam əş-Şəhid” abidəsinin içində yerləşir.

Tanınmayan soyqırımlardan digərləri Ukrayna ərazisində baş vermiş Qolodomor (1932–1933) və Buça (2022) soyqırımlarıdır. Ukrayna Ali Radasının müvafiq qərarları ilə bu qətliamların məqsədli şəkildə həyata keçirildiyi və “Ukrayna xalqına qarşı soyqırımı” olduğu bildirir. 2008-ci ildə açılmış Qolodomor soyqırımına aid Milli Muzeydə (“National Museum of the Holodomor-Genocide”, Національний музей Голодомору-геноциду) qolodomorla bağlı sənədlər, qurbanların şəxsi əşyaları, ailə tarixləri və interaktiv sərgilər nümayiş olunur (National Museum of the

Holodomor-Genocide). Soyqırım qurbanlarına aid abidənin yanında yaradılmış muzey milli matəm simvoludur. Eyni zamanda, Xarkov, Odessa, Lvov, Çernovtsi və digər şəhərlərdə heykəllər və xatirə lövhələri vardır. 30-dan çox dövlət bu faciəni soyqırım kimi tanıyır.

Müharibə cinayətləri üzrə yaddaş siyasətləri yalnız hüquqi və memorial vasitələrlə məhdudlaşmır. Xatirə günləri, təhsil proqramları, sənədli filmlər və rəqəmsal platformalar bu siyasətin tərkib hissəsinə çevrilmişdir. Holokost Xatirə Günü, Xocalı Soyqırımı Anım Günü kimi tədbirlər qlobal yaddaşın formalaşmasında simvolik əhəmiyyət daşıyır.

**Azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı və müharibə cinayətləri**

Azərbaycanlılara qarşı soyqırımı və müharibə cinayətləri ermənilərin Rusiya imperiyası tərəfindən Qafqaza köçürülməsi ilə başlamışdır. Bu hadisələrin ən qanlı mərhələləri 1905–1907, I Dünya müharibəsi zamanı başlamış və 20-ci illərə qədər davam etmiş soyqırımlar, XX əsrin sonlarından başlayaraq 2020-ci il daxil olmaqla Qarabağ müharibələri zamanı həyata keçirilmiş Xocalı, Başlıbel, Ağdaban, Gəncə, Bərdə və Naftalan faciələridir. Erməni faşistləri tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti və soyqırımı cinayətləri müxtəlif dövrlərdə azərbaycanlılara məxsus ərazilərin işğalı ilə nəticələnmişdir. Beləliklə, cinayətlərə aid faktlar işğal edilmiş ərazilərdə qalmışdır. Erməni millətçiləri azərbaycanlılar yaşayan məskənlərə kütləvi hücumlar etmiş, qırğınlar və zorakılıqlar törətmiş, sağ qalanları əraziləri tərk etməyə məcbur etmişlər. Bu mövzular həm mənbələrdə əks olunmuş, həm də Azərbaycan tarixşünaslığında geniş tədqiq edilmişdir (Deportasiya, 1998; İsgəndərov, 2006; Məmmədova, 2006; Əzizov, 2009; Mahmudov, 2016; Abışov, 2017; Mustafa, 2017 və s.).

Təəssüf ki, Azərbaycan ərazində baş verən soyqırımlar və müharibə cinayətləri rəsmi şəkildə beynəlxalq hüquq tərəfindən tanınmır. Halbuki ermənilər tərəfindən həyata keçirilən bu cinayətlər məhz BMT-nin müvafiq Konvensiyası ilə hüquqi statusa uyğundur. Çünki mülki əhali məhz etnik və dini mənsubiyyətinə — türk-müsəlman olduğu üçün qətlə yetirilmişdir.



**Şəkil 2. Quba Soyqırımı Memorial Kompleksi**
*Mənbə*: Quba Soyqırımı Memorial Kompleksi // https://soyqirim.az/

2013-cü ildə yaradılan "Soyqırımı Memorial Kompleksi" cinayətin izlərini əks etdirən (burada toplu məzarlıq tapılmışdır) və soyqırımın ("Azərbaycanlıların soyqırımı" haqqında Fərman, 1998) həyata keçirildiyi ərazilərdən biri olan Qubada yaradılmışdır (Şəkil 2). Muzeydə XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif qəzalarında erməni millətçiləri tərəfindən həyata keçirilən soyqırımı hadisələrinə dair istintaq sənədləri, şahid ifadələri və arxiv materialları əsasında sistemləşdirilmiş məlumatlar, fotoşəkillər və xəritələr nümayiş etdirilir (Soyqırımı Memorial Kompleksi).

Ermənistanın yaxın tarixdə — 1990–2020-ci illərdə törətdiyi müharibə cinayətləri və soyqırımlarına aid inkar edilməz faktlar vardır. Bu materialların əsas hissəsi Vətən müharibəsi zamanı azad edilən ərazilərdən əldə edilir. Ermənistanın Azərbaycan ərazilərini işğalı zamanı və atəşkəs dövründə törətdiyi müharibə cinayətləri — mülki əhaliyə qarşı hücumlar, əsirlərə işgəncə və zorakılıq halları, eləcə də insanlıq əleyhinə cinayətlər və soyqırımı aktları — beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulduğunu göstərir (ICRC, 1993). Bu cinayətlər təkcə işğal edilmiş ərazilərlə məhdudlaşmır, həm də cəbhə xəttindən kənarda yerləşən mülki obyektlər və insanlar da hədəf alınmaqla geniş miqyasda həyata keçirilmişdir. Bunlarla yanaşı, mina terroru, ekosid və urbisid kimi müharibə cinayətlərinə aid inkar edilməz faktlar vardır.

Xocalı soyqırımı (1992) Ermənistan tərəfindən törədilən ən ağır cinayətlərdən biridir. Əhali qaçmağa cəhd edərkən, xüsusilə qadınlar, uşaqlar və yaşlılar erməni silahlı qüvvələri tərəfindən amansızlıqla qətlə yetirilmiş, şəhər isə işğal edilmişdir. Rəsmi məlumatlara əsasən, 613 nəfər mülki şəxs qətlə yetirilmişdir (Əziz, 2008; Human Rights Watch, 1992). Bu faciə yalnız fiziki məhv aktı ilə deyil, həm də Azərbaycan cəmiyyətinə psixoloji və sosial baxımdan ağır zərbə vurmuş, dərin şok effekti yaratmışdır. İşğal dövründə Xocalı soyqırımının yaddaşda yaşadılması məqsədilə bir sıra abidə və memorial komplekslər, o cümlədən Bakıda Xocalı Soyqırımı Memorial Kompleksi ucaldılmışdır (Xocalı Soyqırımı Memorial Kompleksi, 2021). Bu komplekslər həm xalqın tarixi yaddaşını qorumağa, həm də beynəlxalq səviyyədə soyqırımların qarşısının alınmasına dair şüurun formalaşmasına xidmət edir. Xocalının azad edilməsindən sonra ərazidə soyqırımı faktlarını sübut edən toplu məzarlar aşkarlanmışdır. 26 fevral 2025-ci il tarixində Xocalı-Əsgəran yolunun yaxınlığında "Xocalı Soyqırımı Memorial Kompleksi"nin təməli qoyulmuşdur. Azərbaycan dövləti və qeyri-hökumət təşkilatları bu faciənin beynəlxalq səviyyədə tanıdılması və qurbanların xatirəsinin qorunması məqsədilə mütəmadi tədbirlər həyata keçirir. Hər il 26 fevralda Xocalı Soyqırımı Anım Günü qeyd olunur və bu hadisənin beynəlxalq ictimaiyyət tərəfindən tanınması istiqamətində təbliğat aparılır. Xocalı soyqırımı İslam Əməkdaşlıq Təşkilatı, həmçinin Pakistan İslam Respublikasının Milli Assambleyası, ABŞ-ın 10-dan artıq ştatı, Rumıniya parlamenti kimi bir sıra dövlətlər tərəfindən soyqırımı və insanlıq əleyhinə cinayət kimi tanınmış və pislənmişdir.

Ermənistanın törətdiyi müharibə cinayətləri Vətən müharibəsi dövründə də davam etmiş, Gəncə (11 və 17 oktyabr 2020, ballistik "Elbrus" (SCUD) raket zərbələri), Bərdə (28 oktyabr 2020, "Smerç" raket sistemi) və Naftalan (27 sentyabr 2020, artilleriya) kimi cəbhə xəttindən uzaqda yerləşən şəhərlər hədəf alınmış, nəticədə mülki əhali və infrastruktur ağır zərər görmüşdür (Azerbaijan Prosecutor General's Office, 2020). Yüksək dağıdıcı gücə malik bu raketlərin şəhər mərkəzində istifadəsi müharibə cinayəti kimi qiymətləndirilir (ICRC, 2020). Kasetli sursatların istifadəsi beynəlxalq humanitar hüquqa, xüsusilə 2008-ci il Kasetli Silahların Qadağan olunması Konvensiyasına ziddir. Hətta Ermənistan bu Konvensiyanı ratifikasiya etməsə belə, bu silahların istifadəsi mülki əhalinin qorunması prinsipinə ziddir və beynəlxalq səviyyədə məsuliyyət doğurur. Human Rights Watch tərəfindən yayımlanan rəsmi hesabatda Ermənistanın Bərdədə kasetli bombalardan istifadə etməsi təsdiqlənmiş və bu hücumun qeyri-mütənasib, mülki əhalini məqsədli hədəf alan hərbi əməliyyat olduğu bildirilmişdir (Human Rights Watch, 2020). Bu faktlar Ermənistan tərəfindən həyata keçirilmiş müharibə cinayətləri kimi sənədləşdirilmişdir. 2021-ci ildə Azərbaycan hökuməti tərəfindən hazırlanan "Ermənistanın müharibə cinayətləri" adlı hesabatda Gəncə və Bərdə hadisələri sənədlərlə əhatəli şəkildə təqdim olunmuşdur (MFA, 2021). Təəssüf ki, müasir informasiya imkanlarına baxmayaraq, dünya ictimaiyyəti bu cinayətlərə də səssiz qaldı.

Azərbaycan dövləti ərazilərini işğaldan azad etdikdən sonra müharibə cinayətləri və soyqırımların həyata keçirilməsində günahlandırılan erməni əsilli 15 nəfər 2025-ci ilin yanvar ayından başlayaraq Azərbaycan Respublikasının qanunları ilə məhkəmə qarşısına çıxarılmışdır. Azərbaycan xalqı

bu prosesi "İkinci Nürenberq prosesi" adlandırır (Azərbaycanda "Nürnberq prosesi"…, 2025). Məhkəmə prosesi Azərbaycan xalqının erməni faşizmi ilə mübarizəsində əsas mərhələlərdən biridir və ədalətin bərpasına yönəlmişdir.

Bu faciələr Azərbaycan ictimaiyyətində və diplomatik müstəvidə "mülki əhaliyə qarşı vəhşilik aktları" kimi qəbul edilir və beynəlxalq səviyyədə hüquqi tanınma üçün sənədləşdirilmiş materiallar əsasında təqdim olunur. Mülki əhaliyə qarşı məqsədli zorakılıq aktlarının sənədləşdirilməsi həm tarixi yaddaşın qorunması, həm də gələcək münaqişələrin qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır.

## Nəticə

Tədqiqat göstərir ki, yaddaş siyasəti cəmiyyətin tarixi necə xatırlayacağını və təqdim edəcəyini müəyyən edir, bu isə sosial həmrəyliyə, psixoloji münasibətlərə və siyasi mövqelərə təsir edir. Soyqırımı və müharibə cinayətləri muzeyləri yalnız tarixi hadisələrin qorunduğu məkanlar deyil, həm də yaddaş siyasətinin mühüm alətləridir. Onlar milli kimliyin formalaşmasına, beynəlxalq ictimaiyyətin münasibətinə təsir göstərir və bəzi hallarda ədalət axtarışının elementinə çevrilirlər. Tarixi travmaların düzgün təbliği həm ədalətin bərpası, həm də gələcək nəsillərin maarifləndirilməsi baxımından vacibdir. Müasir texnologiyalar və beynəlxalq əməkdaşlıq bu siyasətin təsir dairəsini genişləndirərək qlobal səviyyədə sülh və qarşılıqlı anlayışa töhfə verir.

Azərbaycanlılar arasında isə yaddaş siyasətinin milli kimliyin möhkəmləndirilməsi və sosial həmrəyliyin təminində Ermənistanın törətdiyi müharibə cinayətləri, işğal və Xocalı soyqırımı mühüm rol oynamışdır. Bu cinayətlərə aid faktlar beynəlxalq hüququn, insanlıq əleyhinə cinayətlərin və müharibə cinayətlərinin daha ciddi və əhatəli şəkildə araşdırılmasının vacibliyini ortaya qoymuşdur. Bu hadisələr, həmçinin beynəlxalq cəmiyyətin müharibə cinayətlərinin qarşısını almaq üçün daha ciddi və təsirli tədbirlər görməsinin zəruriliyini göstərir. Azərbaycan xalqının bu mövzuda fəaliyyəti erməni faşizminə qarşı mübarizənin tərkibidir.

Bununla yanaşı, Ermənistan tərəfindən törədilən cinayətlərin və soyqırımların dünya ictimaiyyətinə tanıdılması, faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə işğaldan azad edilmiş ərazilərdə, eləcə də Gəncə, Bərdə və Naftalanda memorial komplekslərin, abidə və xatirə lövhələrinin ucaldılması, bu hadisələrin mediada və muzey ekspozisiyalarında sənədləşdirilməsi, həmçinin hüquqi və diplomatik səviyyədə tanıdılması istiqamətində ardıcıl addımlar atılmalıdır. Belə yanaşma, dünya təcrübəsinə əsasən, təkcə tarixin təhrif edilməsinin qarşısını almaqla kifayətlənmir, eyni zamanda gələcək nəsillərin düzgün maarifləndirilməsinə və bu kimi cinayətlərin təkrarının qarşısının alınmasına xidmət edir. Bu məsələlərin öyrənilməsi, eyni zamanda, Azərbaycan xalqının erməni faşizminə qarşı mübarizəsinin səbəblərini və bu mübarizənin beynəlxalq hüquq və tarixi kontekstdə əsaslandırılmasını mümkün edir.

## Ədəbiyyat

1. "Azərbaycanlıların soyqırımı" haqqında 690 saylı Fərman. (1998, mart 26). Azərbaycan Respublikasının Prezidenti. https://e-qanun.az/framework/4684
2. Abışov, V. (2017). *Bakıda Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqrımı*. Bakı: Elm.
3. Azerbaijan Prosecutor General's Office. (2020). *Information on missile attacks against Ganja city*. https://genprosecutor.gov.az
4. Azərbaycanda "Nürnberq prosesi" başlayıb. (2025, yanvar 17). APA informasiya agentliyi. https://apa.az/hadise/azerbaycanda-nurnberq-prosesi-baslayib-yenilenib-foto-video-884881
5. Babii Iar. (n.d.). *Rubryka*. https://rubryka.com/ru/article/museums-world-war/
6. Deportasiya. (1998). Toplu. *Azərbaycan ensiklopediyası*. NPB.
7. Əziz, B. (2008). *Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri*. Azərnəşr.
8. Əzizov, E. (2009). *Difai: XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri*. CBC PP.
9. Genotsid v Srebrenitse. (n.d.). United Nations. https://www.un.org/ru/observances/srebrenica-genocide-commemoration-day

10. Human Rights Watch. (1992). *Massacres in Khojaly*. https://www.hrw.org
11. Human Rights Watch. (2020, dekabr). Armenia: Cluster munitions used in attack on Azerbaijani city. https://www.hrw.org/news/2020/12/11/armenia-cluster-munitions-used-azerbaijani-city
12. Xocalı Soyqırımı Memorial Kompleksi. (2021). *Xocalı soyqırımının yaddaşını yaşatmaq*. https://www.khojalymemorial.az
13. International Committee of the Red Cross (ICRC). (1993). *International humanitarian law and the Nagorno-Karabakh conflict*. https://www.icrc.org
14. International Committee of the Red Cross (ICRC). (2020). *International humanitarian law and the protection of civilians*. https://www.icrc.org/en/doc/assets/files/other/icrc_002_0703.pdf
15. International Criminal Court. (2002). *Rome Statute of the International Criminal Court*. https://www.icc-cpi.int
16. İsgəndərov, A. (2006). *Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918–1920)*. Adiloğlu.
17. Mahmudov, Y. (Elmi redaktor). (2016). *Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları*. Azərbaycan Tarixçiləri İctimai Birliyi.
18. Mehmet, N. (2013). İşgalden İstiklale Cezayir. *Tarih Dergisi*, (55), 155–187. https://dergipark.org.tr/tr/pub/iutarih/issue/9628/120268
19. Məmmədova, H. (2006). *Azərbaycan xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918–1920)*. Nağıl Evi nəşriyyatı.
20. Ministry of Foreign Affairs of the Republic of Azerbaijan. (2021). *Report on Armenia's war crimes against Azerbaijan during the 2020 conflict*. https://mfa.gov.az/en/news
21. Mustafa, N. (2017). *İrəvan quberniyasında azərbaycanlıların soyqırımı (1918–1920)*. Elm.
22. National Museum of the Holodomor-Genocide. (n.d.). *Holodomor Museum*. https://holodomormuseum.org.ua
23. Soyqırımı Memorial Kompleksi. (n.d.). *Soyqırım.az*. https://soyqirim.az/link/2500
24. Srebrenitsa soykırımı 23. yılında anıldı, 35 kurban toprağa verildi. (2018, iyul 12). *Euronews Türkçe*. https://tr.euronews.com/2018/07/12/yakin-tarihin-utanci-srebrenitsa-katliami-kurbanlarin-defin-islemleri-hala-suruyor
25. UNESCO World Heritage Centre. (n.d.). *Auschwitz Birkenau German Nazi concentration and extermination camp (1940–1945)*. https://whc.unesco.org/en/list/31/
26. United States Holocaust Memorial Museum. (1993). *The Holocaust and the United Nations*. https://www.ushmm.org

Daxil oldu: 19.03.2025
Qəbul edildi: 22.06.2025